AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

4 İYUN 2024-cü il ÇƏRŞƏNBƏ AXŞAMI № 116 (7874) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ

# VƏTƏNPƏRVƏR RUHLU, YENİLMƏZ ORDUMUZ

*"Ancaq hər şeyin vaxtı var və biz qayıtmışıq, həm Vətən müharibəsi, həm antiterror əməliyyatı xalqımızın gücünü, iradəsini, əsgər və zabitlərimizin qəhrəmanlığını bütün dünyaya sübut etdi... Onların qəhrəmanlığı, fədakarlığı sayəsində biz bu gün buradayıq. Onlar sinələrini qabağa verərək düşmənə elə bir sarsıdıcı zərbə endirmişlər ki, əminəm, bundan sonra Ermənistan heç vaxt Azərbaycana qarşı hər hansı bir hərbi təxribat törətməyə cəhd etməyəcək". Prezident İlham Əliyev may ayının 28-də Xocalı şəhərinə köçən sakinlərlə görüşündə bu fikirləri söyləyib.*

İkinci Qarabağ müharibəsində dövlətçilik tariximizə elə bir səhifə yazıldı ki, əsrlər, qərinələr keçsə belə, bu Şanlı Qələbə öz mahiyyətini, əhəmiyyətini heç zaman itirməyəcək. Dünya durduqca, xalqımız bu möhtəşəm Zəfərin qürurunu, iftixarını yaşayacaq.

**(davamı 4-cü səhifədə)**







**(əvvəli 1-ci səhifədə)**

# VƏTƏNPƏRVƏR RUHLU, YENİLMƏZ ORDUMUZ

Bir-birini əvəz edən nəsillər hələ min illər boyu əcdadlarının qəhrəmanlığından, əsgərindən tutmuş generalına kimi Vətən yolunda canından keçən mərd oğullarımızın şücaətindən danışacaq. XXI əsrin müharibəsini aparan, rəşadəti, mərdliyi, mətanəti ilə dünya hərb tarixində qəhrəmanlıq məktəbi yaradan Azərbaycan Ordusunun adı dillərdə dastan olacaq.

Vətən müharibəsi və cəmi 44 gün... Bu qədər böyük məfhum və bu qədər az zaman... Bir xalqın, millətin Vətən, torpaq sevgisi o qədər ölçüyəgəlməz, o qədər sərhədsiz olmalıdır ki, bir qarış torpağını, bir qara vətən daşını canından əziz tutsun. Eyni zamanda işğal etdiyi ərazilərdə 30 il boyu möhkəmlənən, istehkamlar yaradan düşmənə nifrəti nə qədər güclü olmalıdır ki, onun "ləpirlərini" cəmi 44 günə bu yerlərdən birdəfəlik silsin. Bəli, "öldü var, döndü yoxdur" deyən igid oğullarımız mübarizliyini, düşməni qarşısında diz çökdürmək gücündə olduğunu, yenilməzliyini Vətən müharibəsində bir daha sübut etdi və bütün dünyaya göstərdilər ki, torpaq müqəddəsdir.

Ən müasir silahlarla, texnika ilə təchiz olunan milli ordumuzun əsgər və zabitləri Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə hər günü bir tarixə dönən Zəfərimizi yazdılar. Qan tökərək, şəhid verərək xalq qarşısında vətəndaşlıq borcunu şərəflə yerinə yetirdilər. 44 gün ərzində 300-dən çox şəhər və kəndi işğaldan azad edən, döyüş meydanında misilsiz hünər göstərərək düşmənə qan udduran Azərbaycan Ordusu nəyə qadir olduğunu Şuşa uğrunda savaşda nümayiş etdirdi. Təsadüfi deyil ki, müharibədən 4 ilə yaxın vaxt keçməsinə baxmayaraq, yağı düşməni diz çökdürən, ona layiqli dərs verən əsgər və zabitlərimizin rəşadəti, vətənpərvərlik ruhu barədə hələ də danışılır, milli ordumuzun bölmələrinin döyüş taktikası, uğurlu əməliyyatları, qələbəyə aparan döyüş yolu bütün dünyanın aparıcı ali məktəblərində və hərbi ekspertlər, mütəxəssislər tərəfindən öyrənilir.

Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə milli ordunun Türkiyə Silahlı Qüvvələrinin standartlarına uyğunlaşdırılması, maddi-texniki təminatının yaxşılaşdırılması istiqamətində zəruri tədbirlər həyata keçirilir, əsgər və zabitlərin bilik və təcrübələri təkmilləşdirilir, döyüş qabiliyyəti möhkəmləndirilir. Bu gün Ordumuz dünya hərb sənayesinin yüksək texnologiyalarının tətbiqi ilə hazırlanmış ən müasir, dəqiq, geniş ərazidə məhvetmə qabiliyyətinə malik silah-sursat və döyüş texnikası, idarəolunan DRON tipli pilotsuz qırıcılarla təmin edilib. Arsenalında olan yüzlərlə zirehli texnika milli ordumuzun böyük potensialından xəbər verir.

Müdafiə Nazirliyinin tabeliyindəki bütün təhsil müəssisələri Milli Müdafiə Universitetində birləşdirilib, qardaş Türkiyə ilə mütəmadi olaraq keçirilən birgə hərbi təlimlər əsgər və zabitlərin döyüş hazırlığı və peşəkarlığının artırılmasında böyük rol oynayır. Hərbi xərclər üçün dövlət büdcəsindən ilbəil daha çox vəsait ayrılır. Müdafiə Sənayesi Nazirliyinin xətti ilə istehsal olunan 1300-dən çox adda hərbi təyinatlı məhsullar ordumuzun potensialını gücləndirir. Aparılan kadr istahatlarının, maddi-texniki bazasının möhkəmləndirilməsinin, tətbiq edilən yeniliklərin nəticəsidir ki, bu gün Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasında yer alır.

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş ordu quruculuğu prosesi qalib Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin prioritet istiqamətidir. Ölkə başçımız daim vurğulayır ki, beynəlxalq müstəvidə güc amili ön plana çıxır və müstəqil siyasət yürüdən dövlətimiz də real vəziyyətə uyğun addımlar atır: "Beynəlxalq hüquq normaları kobudcasına pozulur, onlara əməl edilmir. Əfsuslar olsun ki, bu gün beynəlxalq münasibətlərdə "kim güclüdür, o da haqlıdır" prinsipi üstünlük təşkil edir. Biz bunu görürük, müşahidə edirik və buna uyğun öz addımlarımızı atmalıyıq. Çünki biz real vəziyyətlə hesablaşmalıyıq. Beynəlxalq hüququn normalarının pozulması hər bir ölkəni öz hərbi potensialının gücləndirilməsinə vadar etməlidir və biz buna artıq çoxdan başlamışıq".

Bu gün Azərbaycan Ordusu dünya hərb sənayesinin ən müasir texnologiyaları ilə silahlandırılır. Silahlı Qüvvələrimizin əsgər və zabit heyəti hərtərəfli dövlət qayğısı ilə əhatə olunub, onların məişət və xidmət şəraitinin yaxşılaşdırılması təmin edilir. İdeoloji tərbiyə, vətənpərvərlik, vətən sevgisi isə bütün təminatlardan öndə dayanır. İkinci Qarabağ müharibəsində düşmən üzərində qalibiyyətimizin əsasında da məhz bu amil dayandı: dövlət-xalq-ordu birliyi.

Bəli, mənfur düşmən 30 ilə yaxın müddət ərzində torpaqlarımızın 20 faizdən çox hissəsini işğal altında saxladı, sərhədboyu ərazilərdə təxribatlara, terror hadisələrinə ara vermədi. 2020-ci il sentyabr ayının 27-də Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun bölmələri ölkəmizin ərazi bütövlüyünü təmin etmək, yağı düşmənə kimin kim olduğunu anlatmaq üçün əks-hücuma keçdi. Cəmi 44 gün çəkən Vətən müharibəsində torpaqlarımız ürəyi Vətən eşqi, Vətən məhəbbəti ilə döyünən qəhrəman oğullarımızın və düşünülmüş siyasət yürüdən müdrik liderimizin sayəsində işğaldan azad olundu. Vətən uğrunda başlanan müharibədə yüz nəfərdən çox döyüşçümüz, zabitimiz "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb. Bu xalq mərdliyini, cəsarətini, qəhrəmanlığını bütün dünyaya göstərdi. Bütün dünya bildi ki, Azərbaycan deyilən bir məmləkət və bu məmləkətin bir qarış torpağı üçün canını fəda edən, şəhadətə ucalıb ölümə meydan oxuyan yüzlərlə, minlərlə qəhrəman, mübariz oğulları var.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**